36 (1291) 14-20 sentyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## TƏHSİL İSLAHATLARI DÖVLƏT BAŞÇISININ DİQQƏT VƏ QAYĞISI SAYƏSİNDƏ UĞURLA DAVAM EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də iki min şagird yerlik Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.
Elm və təhsil naziri Emin Əmrullayev və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat veriblər.
Qeyd edək ki, bu məktəbin layihəsi Xırdalan şəhərinin ərazisindəki təhsil ocaqlarında şagird sıxlığı nəzərə alınaraq dövlətimizin başçısının tapşırıqlarına əsasən hazırlanıb və uğurla icra olunub.
Prezident İlham Əliyev yeni təhsil ocağının məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM Mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış olub.
STEAM layihəsi birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-2020-ci tədris ilinin əvvəlindən məktəblərimizdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə aşılamaqla yanaşı, onlara mühəndislik səriştələri öyrədir.
Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür.
Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir.
Xırdalan şəhəri 11 saylı tam orta məktəbin ən müasir standartlara cavab verən binasının inşası da bir daha təsdiqləyir ki, ölkəmizdə təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir.

## DÖVLƏT BAŞÇILARI AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏKİ VƏZİYYƏTİ MÜZAKİRƏ EDİBLƏR



Sentyabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.
Telefon danışığı əsnasında dövlət başçıları regional məsələləri, həmçinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə ediblər.
Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

## KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ İNKİŞAF ETDİRİLİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də ölkəmizdə səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul edib.
Söhbət zamanı ikitərəfli münasibətlərimizə toxunularaq, İsrail dövlətinin Prezidenti İsxak Hersoqun bu ilin mayında Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi bildirilib. Azərbaycan Prezidentinin köməkçisinin İsrailə səfəri qeyd olunub, ölkəmizin İsraildə səfirliyinin açılmasının əhəmiyyəti vurğulanıb. Görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafından və bununla bağlı təcrübə mübadiləsinin həyata keçirilməsindən məmnunluq ifadə edilib, bu sahədə əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirilib. Avi Dixterin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## STEFAN DYUJARİK: BMT-NİN QƏTNAMƏLƏRİ AZƏRBAYCANIN SUVERENLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ TƏSDİQLƏYİR

Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini xatırlamalıyıq. Bu qətnamələr Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təsdiq edir.
AZƏRTAC xəbər verir ki, bu bəyanatla BMT Baş katibinin nümayəndəsi Stefan Dyujarik separatçı erməni rejiminin “prezident seçkiləri”nə münasibət bildirərək çıxış edib.
BMT Baş katibinin nümayəndəsi Ermənistanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa və suverenliyinə hörmətlə yanaşmağa çağırıb.
Stefan Dyujarik Azərbaycanla Ermənistanı qarşılıqlı münasibətləri normallaşdırma prosesini sürətləndirməyə dəvət edib və nəzərə çatdırıb ki, bu, regionun təhlükəsizliyi üçün çox əhəmiyyətlidir.

## AYİB-İN AZƏRBAYCANDA FƏALİYYƏT İSTİQAMƏTLƏRİ MÜZAKİRƏ OLUNUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda fəaliyyət istiqamətləri və ölkəmiz üçün prioritet sahələr, xüsusilə bərpaolunan enerji, nəqliyyat, logistika, kiçik və orta biznesin inkişafı sahələrində, Orta Dəhliz istiqamətində əməkdaşlıq məsələləri müzakirə olunub.
Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulandı, Bankın ölkəmizin enerji və nəqliyyat layihələrinə, xüsusilə Cənub Qaz Dəhlizinə ayırdığı kreditlərin vacibliyi qeyd olunub.
Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## “AZƏRBAYCANLA YAŞIL ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜÇÜN YAXŞI İMKANLAR VAR”

“Azərbaycan və Bolqarıstan sadəcə strateji tərəfdaş ölkələr deyil, həm də çox yaxın ölkələrdir. Ölkələrimiz arasında yüksək səviyyəli siyasi dialoq müntəzəm xarakter daşıyır. Azərbaycan və Bolqarıstan beynəlxalq müstəvidə baş verən bir çox proseslərdə də eyni baxışlara malikdir, hər iki ölkənin regionların sabitliyinə və təhlükəsizliyinə dair mövqeləri eynidir”.
Bu sözləri Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycan parlamentinin sədri Sahibə Qafarova ilə görüşü zamanı deyib.
Bolqarıstan Prezidenti ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edərək, Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ildə və bu il Bolqarıstana, özünün isə 2023-cü ilin martında Azərbaycana səfərlərini xoş təəssüratlarla xatırlayıb.
Prezident Rumen Radev digər sahələrdə olduğu kimi, parlamentlər arasında əməkdaşlığın vacibliyini qeyd edərək, bu istiqamətdə də təmasların sıxlaşdırılmasının ikitərəfli münasibətlərin daha da inkişafına töhfə verəcəyini bildirib. O, həmçinin regionda sülhün və təhlükəsizliyin təmin olunmasını istədiklərini, sülh danışıqlarını dəstəklədiklərini diqqətə çatdırıb.
Rumen Radev ölkələrimiz arasında enerji sahəsində də uğurlu nəticələrin müşahidə edildiyini qeyd edərək bildirib ki, Azərbaycan qazı artıq Bolqarıstana gəlib çatıb. Strateji tərəfdaşlıq münasibətlərimiz yalnız enerji sahəsini əhatə etmir.

## “Azərbaycan Qarabağ ermənilərinin inteqrasiyası prosesinin “yumşaq” keçməsində maraqlıdır”




“Azərbaycan rəhbərliyi Qarabağda etnik təmizləmə aparmaqda maraqlı deyil. Üstəlik, Azərbaycan Qarabağ ermənilərinin inteqrasiyası prosesinin “yumşaq” keçməsində maraqlıdır”.

Bu barədə Rusiya Prezidenti Vladimir Putin Vladivostokda keçirilən Şərq İqtisadi Forumunun plenar iclasında bildirib.

RF Prezidenti əlavə edib ki, Ermənistan rəhbərliyi Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyıb. “İndi Prezident Əliyev mənə deyir: “Siz axı bilirsiniz ki, Ermənistan Qarabağın bizim olmasını tanıyıb”. Qarabağın statusu haqqında məsələ daha yoxdur, problem həll olunub, erməni rəhbərliyi bunu açıq bəyan edib və 1991-ci ildə Azərbaycan SSR çərçivəsində olan bütün əraziləri tanıyıb”.

Rusiya lideri qeyd edib ki, Azərbaycan bütün məsələlərin ikitərəfli formatda həllinin tərəfdarıdır.

## “Qarabağdakı qondarma “prezident seçkiləri”ni tanımırıq”




“Biz ötən həftə də bəyan etdik ki, Qarabağı müstəqil və suveren ölkə kimi tanımırıq, eyni zamanda, orada keçirilən qondarma “prezident seçkiləri”ni də tanımırıq”. Bunu ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller mətbuat üçün brifinqində deyib.

Dövlət Departamentinin mətbuat katibi bildirib ki, ABŞ dövlət katibi Entoni Blinken tərəfləri gərginlik yaradacaq addımlardan çəkinməyə, dialoqa çağırıb. Metyu Miller vurğulayıb ki, rəsmi Bakı ilə İrəvan arasında dialoq vacibdir: “ABŞ Azərbaycan və Ermənistan arasında həll olunmamış məsələlərin həlli istiqamətində səyləri, birbaşa dialoqu davamlı şəkildə dəstəkləyir”.

## S.Lavrov Ermənistan parlamentinin spikerini yalan danışmaqda ittiham edib

“Ermənistan rəhbərliyinin Moskvanın Qarabağı Azərbaycana “verməsi” haqqında bəyanatları həqiqətə uyğun deyil”.

Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov G20 sammiti çərçivəsində keçirilən mətbuat konfransında deyib. O bildirib: “Hansısa xadim, səhv etmirəmsə, parlamentin başçısı belə bir fikir söyləyib ki, Rusiya Qarabağı Azərbaycana “verib”. Bundan qeyri-dəqiq və vicdansız bəyanatı təsəvvür etmək mümkün deyil. O, 2020-ci ilin noyabrında Putin, Paşinyan və Əliyevin ilk üçtərəfli bəyanatı imzalayanda Qarabağın Rusiya tərəfindən Azərbaycana verildiyinə istinad edib. Bu, qətiyyən həqiqətə uyğun deyil”.

Rusiya XİN-in başçısı vurğulayıb ki, Rusiya Ermənistan rəhbərliyinin ABŞ ilə birgə hərbi təlimlər keçirməsi niyyətini təəssüflə qarşılayıb.



## Ərdoğan: İndi Qarabağda atılan addımlar doğru addımlar deyil

“Sabah böyük ehtimalla Paşinyanla danışığım olacaq. Bizim regionu (Qarabağı) sakitliyə dəvət etməkdən başqa çarəmiz yoxdur”.

Bu sözləri “Böyük İyirmiliy”in sammiti çərçivəsində mətbuata açıqlamasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

İndi Qarabağda atılan addımların doğru addımlar olmadığını vurğulayan Prezident Ərdoğan qeyd edib ki, bunu qəbul etmək mümkün deyil. Əslində, Avropa İttifaqına üzv ölkələr də bunu qəbul etmir.



## Gürcüstan XİN: Qarabağda keçirilmiş qondarma prezident seçkilərini tanımırıq

“Gürcüstan Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir”.

Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir.

“Gürcüstan Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirir və Qarabağda 9 sentyabr 2023-cü ildə keçirilmiş qondarma prezident seçkilərini tanımır”, - deyə bəyanatda qeyd olunub.

## Türkiyə XİN: Qarabağda qondarma rejimin keçirdiyi “prezident seçkilərini” tanımırıq

“Türkiyə Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin keçirdiyi “prezident seçkilərini” tanımır”.

Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

“Türkiyə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün pozulmasını ifadə edən bu qanunsuz seçkiləri tanımır. BMT-ni və beynəlxalq ictimaiyyəti bu seçkiləri tanımamağa çağırırıq”, - deyə bəyanatda vurğulanıb.

Qeyd olunub ki, qondarma “seçkilər” beynəlxalq hüququn, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT-in prinsiplərinin pozulmasıdır.

Türkiyə XİN Azərbaycan və Ermənistanın sülh danışıqlarını davam etdirməyə çalışdığı bir vaxtda keçirilən bu “seçkiləri” pisləyib və onu danışıqları sarsıtmağa yönəlmiş addım kimi qiymətləndirib.

“Türkiyə Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesini dəstəkləyir və yaxın gələcəkdə uzunmüddətli sülh sazişinin imzalanmasının regionda sülh və sabitliyə mühüm töhfə verəcəyinə inamını qorumaqdadır”, - deyə Türkiyə XİN-dən bildiriblər.




## Pakistan XİN Azərbaycanın Qarabağ bölgəsində keçirilmiş qondarma seçkiləri pisləyib



Pakistanın Xarici İşlər Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən qondarma “prezident seçkiləri”ni qınayıb.

Pakistan XİN-in sözçüsü bununla bağlı bildirib: “Pakistan Qarabağı Azərbaycan Respublikasının suveren ərazisi hesab edir və qeyri-qanuni qurulmuş rejimin “qondarma seçkilər”in keçirilməsinə hər hansı cəhdi hüquqi və mənəvi cəhətdən qınanır. Bu cür cəhd həm də BMT Nizamnaməsinin və beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulmasıdır”.

## İsraillə iqtisadi əməkdaşlığın inkişafı müzakirə edilib




Azərbaycan-İsrail iqtisadi-ticarət əməkdaşlığının mövcud vəziyyəti və şaxələndirilməsi perspektivləri, kənd təsərrüfatı sahəsində birgə fəaliyyət imkanları barədə müzakirələr aparılıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixter arasında videokonfrans formatında görüş keçirilib.

Nazirlikdən bildirilib ki, iqtisadiyyat naziri yüksək səviyyəli əlaqələrə malik ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində işlərin davam etdirildiyini vurğulayıb, Azərbaycanda əlverişli biznes və investisiya mühiti, işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialı barədə məlumat verib. Nazir İsrail şirkətləri ilə birgə investisiya layihələrinin reallaşdırılması, əməkdaşlığın inkişafı imkanlarını diqqətə çatdırıb, bu ölkədən olan iş adamlarını Azərbaycanın işgüzar mühitindən yararlanmağa və fəal tərəfdaşlığa dəvət edib.

Avi Dixter ölkəsinin Azərbaycanla iqtisadi, o cümlədən aqrar sahədə əməkdaşlığın inkişafına mühüm önəm verdiyini qeyd edib, tərəfdaşlığın gücləndirilməsi barədə fikirlərini bölüşüb. Tərəflər investisiya, ərzaq təhlükəsizliyi, su təsərrüfatı, kənd təsərrüfatı və bu sahədə elmi-tədqiqat üzrə əməkdaşlığın inkişaf perspektivlərini, Azərbaycan məhsullarının İsrailə ixracının artırılması məsələlərini müzakirə ediblər.

## Macarıstanla energetika sahəsində əməkdaşlıq genişlənir

Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovla energetika sahəsində əməkdaşlığı müzakirə edib.

Trend xəbər verir ki, bu barədə Macarıstan Baş nazirinin Ofisinin mətbuat xidmətinin rəhbəri Zoltan Kovacs "X" sosial şəbəkə hesabında yazıb.

Z.Kovacs deyib ki, Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib.

O qeyd edib ki, tərəflər Azərbaycan enerji şirkətinin Macarıstan təsisləri̇ndə qaz depolamaya başlamasının və iki ölkə arasında fiziki qaz tranzitinin yaradılmasının vacibliyini vurğulayıblar: **“Həmçinin, onlar macar şirkətlərinin Azərbaycanda uğurlu genişlənməsini və gələcəkdə potensial macar investisiyasını müzakirə ediblər.**

**Qarabağın yenidən bərpası sahəsində macar şirkətlərinin inşa prosesində iştirakı üçün bir Azərbaycan şəhəri müəyyənləşdirilib”.**

Görüşdə qeyd edilib ki, Macarıstan azərbaycanlı tələbələrə Macarıstanda təhsil almaq üçün hər il 200 təqaüd imkanı təklif edir.

## “Beynəlxalq ictimaiyyətin ədalətli mövqeyi hər zamankından daha müstəsna əhəmiyyət kəsb edir”

“Bölgədə dayanıqlı sülh və təhlükəsizliyin bərqərar edilməsi üçün yaranmış tarixi imkanın itirilməməsi məqsədilə beynəlxalq ictimaiyyətin ədalətli mövqeyi hər zamankından daha müstəsna əhəmiyyət kəsb edir”.

Bu sözləri xarici işlər naziri Ceyhun Bayramov BMT İnsan Hüquqları Şurasının 54-cü sessiyasında çıxışı zamanı deyib.

Nazir Ceyhun Bayramov münaqişənin bitməsinə baxmayaraq bölgədə dayanıqlı sülhün bərqərar edilməsinin qarşısında bir sıra çağırışların, o cümlədən Ermənistan tərəfindən hərbi-siyasi təxribatların, mina təhdidinin davam etdirilməsi, müharibə zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi barədə məlumatların bu günədək verilməməsi, 1987-1991-ci illər arasında indiki Ermənistan ərazilərində etnik təmizləmə siyasətinə məruz qalmış azərbaycanlıların hüquqlarının inkar olunması, Qarabağ bölgəsində məskunlaşmış erməni sakinlərinin manipulyasiya edilməsi ilə reinteqrasiya səylərinə zərbə vurulmasının dayandığını vurğulayıb.

Sözügedən istiqamətlərin insan hüquqları sahəsi ilə üzvi bağlantısını nəzərə alaraq, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və digər ixtisaslaşdırılmış qurumların, o cümlədən xüsusi prosedurların müvafiq mandatlarının bu sahədə əməli addımlar atmasının vacibliyi diqqətə çatdırılıb.

# Azərbaycanın iqtisadi gücünün təntənəsinə çevrilən quruculuq



**Ziyad SƏMƏDZADƏ, akademik**

*(əvvəli ötən sayımızda)*

**8 şəhər Baş plan əsasında yenidən qurulur, hər birində yeni yaşayış məhəllələri salınır**

Yazının əvvəlində şəhər və kəndlərin qurulması barədə bəhs etdik. Konkret olaraq qeyd edək ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı və Laçın şəhərlərinin baş planları təsdiq edilib. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri zamanı bu planlar təqdim olunub. Hər bir baş plan hazırlanarkən şəhərin özünəməxsusluğu və coğrafiyası nəzərə alınıb. Məsələn, Şuşa şəhərinin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Plana əsasən mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində həyata keçiriləcək və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

İndi isə bərpa edilən şəhərlər üzrə inşa edilən sosial infrastruktur layihələrinə və digər inşaat işlərinə nəzər yetirək. Vurğulayaq ki, hazırki quruculuq və bərpa prosesində yaşayış məhəllələrinin salınması, məktəb və xəstəxana tikintisi prioritetdir.

İndiyədək Şuşa, Füzuli, Cəbrayıl Zəngilan, Laçın, Ağdam, Kəlbəcər, Qubadlı və Xocavənd rayonunun Hadrut qəsəbəsində və Tuğ kəndində ilk yaşayış məhəllələrinin təməli qoyulub və xeyli sayda yaşayış binasının tikintisi həyata keçirilib. Prezident İlham Əliyev şəhərlərin bərpası ilə bağlı deyib: «İşğaldan əziyyət çəkən 1 milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır. Onu da bildirməliyəm, biz bərpa işlərinə start verməzdən əvvəl keçmiş məcburi köçkünlər arasında qeyri-rəsmi sorğu keçirdik ki, onlar öz dədə-baba torpaqlarına qayıtmaq fikrindədirlər, yoxsa yox. Sevindirici hal ondan ibarətdir ki, məcburi köçkünlərin mütləq əksəriyyəti müsbət cavab verib. Bu da təbii ki, görüləcək işin həcmini daha da böyüdür və hesab edirəm ki, mərhələli yollarla şəhərlərin bərpası növbəti beş il ərzində mümkün olacaq».

**8 məktəb, 6 xəstəxana**

Qarabağ və Şərqi Zəngəzurda hələlik 6 xəstəxana inşa edilir. Bunlar Şuşa Rayon Mərkəzi Xəstəxanası, Füzuli Rayon Mərkəzi Xəstəxanası, Zəngilan Rayon Mərkəzi Xəstəxanası, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanası, Ağdam Rayon Mərkəzi Xəstəxanası və Qubadlı Rayon Mərkəzi Xəstəxanasıdır.

Məktəblərə gəldikdə, hazırda 8 məktəb və 1 peşə liseyinin - Şuşa real məktəbinin, Şuşa 1 nömrəli 960 şagird yerlik tam orta məktəbinin, Füzuli şəhər peşə liseyinin, akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbinin, Ağdam şəhər 1 saylı orta məktəbinin, Kəlbəcər şəhərində 960 şagird yerlik məktəbin, Zəngilan şəhərində 960 şagird yerlik məktəbin, Qubadlıda 600 şagird yerlik tam orta məktəbin binalarının tikintisi davam edir.

Bunlardan başqa, Füzuli şəhərində daha bir məktəb qardaş Özbəkistan Respublikası tərəfindən reallaşdırılır. Bu məktəb də 960 şagird yerlikdir.

Bunlarla yanaşı, azad edilmiş ərazilərdə 8 rayonu əhatə etməklə təməli qoyulmuş Dövlətyarlı, Pirəhmədli, Dədəli, Şükürbəyli, Horovlu, Güləbird, Şəlvə, Xıdırlı, Kəngərli, Sarıcalı, Xanlıq Mahruzlu, Yanşaq, Zallar, Cahangirbəyli kəndlərində, Xudafərin və Qorçu qəsəbələrinin hər birində məktəb, uşaq bağçası, inzibati bina və tibb məntəqəsi inşa ediləcək.

Təbii ki, aparılan quruculuq işləri bununla bitmir. Bərpa edilən şəhərlərdə inzibati binalar və otellər də inşa edilir. İndiyə kimi Şuşada 3 otel istifadəyə verilib. Daha 2 otel Ağdamda, 1 otel isə Zəngilanda inşa edilir.

**3 yeni su anbarının tikintisi başlayıb**

Qarabağ və Şərqi Zəngəzurun ərazisindən keçən çayların bəzilərinin üzərində vaxtilə 9 su anbarı inşa edilmişdir. Bunlar Xudafərin, Sərsəng, Qız Qalası, Xaçın, Aşağı Köndələnçay, Suqovuşan, Köndələnçay-1, Köndələnçay-2 və Ağdamkənd su anbarlarıdır. Bu anbarlardan ən böyüyü Xudafərin (1 milyard 612 milyon kubmetr) su anbarıdır. Təxmini hesablamalara görə, ərazilərimizin və su qovşaqlarının işğaldan azad olunması nəticəsində 2 milyard kubmetrdən artıq su ehtiyatından daha səmərəli istifadə etmək imkanı yaranıb ki, hazırda respublikamızın su təsərrüfatı və meliorativ orqanları bu istiqamətdə genişmiqyaslı fəaliyyət planı həyata keçirirlər.

Ərazilərin su təchizatı magistral sisteminin qurulması ilə bağlı 2023-cü il ərzində meliorasiya və su təsərrüfatı obyektlərinin texniki vəziyyətinin qiymətləndirilərək elektron kadastr məlumatı və xəritəsi hazırlanacaq, Suqovuşan su anbarı 5,2 km uzunluğunda magistral kanalla birlikdə, Xaçınçay su anbarı isə 7 km uzunluğunda kanalla birlikdə təmir və bərpa ediləcək, Tərtərçay Sol Sahil kanalı yenidən qurulacaq. Həmçinin Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay- 2 su anbarları da təmir və bərpa olunacaq. Suqovuşan hidroqovşağının təmirindən sonra 100 min hektar, Tərtərçay Sol Sahil kanalının yenidən qurulmasından sonra 29,6 min hektar, Xaçınçay su anbarının bərpasından sonra 7 min hektara yaxın, Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay- 2 su anbarlarının təmirindən sonra 6,2 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmini yaxşılaşacaq.

Həmçinin 2026-cı ilədək olan dövrdə Bərgüşadçay, Həkəriçay və Zabuxçay su anbarları, Qız qalası su anbarından magistral suvarma kanalının tikintisi həyata keçiriləcək.

Bərgüşadçay, Həkəriçay və Zabuxçay su anbarlarının tikintisi artıq başlayıb. Bərgüşadçay su anbarı Qubadlı rayonu ərazisində təqribən 12 min hehtar yeni torpaq sahəsinin suvarılmasını və Qız qalası hidroqovşağından çıxan kanalın qidalandırılmasını, Həkəriçay su anbarı Şuşa, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam, Beyləqan, İmişli, Saatlı, Sabirabad rayonlarında 3 milyona yaxın əhalinin yüksək keyfiyyətli içməli su ilə təchizatını, Zabuxçay su anbarı isə Qubadlı və Zəngilan rayonları ərazisində 12100 ha torpaq sahəsinin suvarılması təmin edəcək.

Bunlarla yanaşı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları üzrə ayrı-ayrılıqda meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı ilə bağlı layihələr də həyata keçiriləcək. Bu ərazilərin suvarılan torpaqlarının suvarma suyu ilə təminatı və su ehtiyatları ilə bağlı məlumatları Elektron Su Təsərrüfatı İnformasiya Sisteminə davamlı inteqrasiyası həyata keçiriləcək, mövcud su anbarları, suvarma və paylayıcı kanallar, nasos stansiyaları, subartezian quyuları, hidroqovşaqlar və digər su təsərrüfatı obyektləri mərhələli şəkildə təmir və bərpa olunacaq, yeraltı və yerüstü su mənbələrinin əsas göstəriciləri qiymətləndiriləcək, onların məlumat bazası və elektron su xəritəsi hazırlanacaq. Kəhrizlərin tədqiqi, bərpası və səmərəli istifadəsinin elmi əsaslarının işlənməsi də diqqət mərkəzində olacaq.



**3 sənaye parkı, 1 aqropark**

Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının hərəkətə gətirilməsi və geri dönən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün azad edilmiş ərazilərdə iqtisadi subyektlərin yaradılması da dövlət tərəfindən təşviq olunur və İqtisadiyyat Nazirliyinin sahibkarlara dəstəyi ilə iri iqtisadi layihələr həyata keçirilir.

İndiyə kimi bu məqsədlə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, Ağdam Sənaye Parkının, Laçın Aqro və Sənaye Parkı Parkının və Zəngilanda "Dost Aqropark"ın təməli qoyulub.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünür. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin yaradılması nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq, 420-dən çox daimi iş yeri yaradılacaq.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ölkədə mövcud digər sənaye parklarında olduğu kimi, sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək tədbirləri göstərilir.

Həmçinin bu il yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir. Buraya sosial sığorta haqlarının subsidiyalaşdırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə güzəştlər də daxildir.

Artıq burada "Avto Lizinq Azərbaycan" MMC servis mərkəzi istifadəyə verilib. 2023-cü ilin may ayında isə "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməlləri qoyulub.

Laçın şəhərində yaradılan Aqro və Sənaye Parkı isə rayonun sosial-iqtisadi həyatında mühüm rol oynayacaq. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün yaradılacaq müəssisələrdə 1169 nəfər işlə təmin olunacaq. Müəssisələr qida, sənaye, yaradıcılıq, tekstil, tədris, turizm və xidmət sahələrində fəaliyyət göstərəcək. Hazırda fəaliyyət göstərən 7 müəssisədə 226 Laçın sakini işlə təmin edilib.

Aqro və Sənaye Parkında ümumilikdə 46 müəssisə fəaliyyət göstərəcək, onların da 80 faizinin 2023-cü ildə yay aylarının sonunadək işə başlayacağı nəzərdə tutulub. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyalar hazırlayan müəssisə, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzi yaradılacaq. İyun ayından artıq keramik məhsullar fabriki fəaliyyətə başlayacaq. Bundan başqa, kinostudiyanın, tekstil, ayaqqabı fabriklərinin açılması, müxtəlif istiqamətlər üzrə qısamüddətli kursların təşkili də nəzərdə tutulub.

Ağdam Sənaye Parkı Qarabağın iqtisadi inkişafına və əhalinin məşğulluğunun təmin edilməsinə böyük töhfə verəcək. Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır. Sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaq. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

İndiyədək burada 7 müəssisə rezident, 2 müəssisə isə qeyri-rezident kimi qeydiyyatdan keçmişdir.

2022-ci ilin oktyabr ayında Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin də təməli qoyulub.

Daha bir iqtisadi subyekt Zəngilanda yaradılır. Türkiyəli və azərbaycanlı sərmayədarlar tərəfindən burada həyata keçirilən "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunur. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsullarının istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək.

**İlham ƏLİYEV: «Hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir»**

Prezident İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Qarabağ və Şərqi Zəngəzurdakı bərpa və quruculuq işlərinin sürətlə icra olunduğunu bəyan edərək deyib: «Hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir. Bütün güclərimizi səfərbər etmişik. Artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtmasını təmin etmişik. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Təbii ki, ilk növbədə, infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik».

Dövlət başçısının da dediyi kimi, Qarabağ və Zəngəzurda bütün işlər sürətlə yerinə yetirilir. Eyni zamanda, hər ötən gün icra olunan layihələrin sırasına yenisi əlavə olunur.

Bu məqalədə toxunduğum məsələlər ayrı-ayrı dövlət orqanlarının fəaliyyəti timsalında Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin gedişatını təhlil etmək idi. Təhlildən ortaya çıxan nəticələr çoxdur. İlk nəticə ondan ibarətdir ki, hələ 2020-ci ilin noyabrında heç kimin ağlına belə gəlməzdi ki, qısa dövrdə Azərbaycan dövləti bu cür genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirəcək. Lakin indi bu, rəallığa çevrilib və təxminən 10 min kvadratkilometr ərazidə həyata keçirilən bərpa işləri Azərbaycan dövlətinin qətiyyətindən xəbər verir.

İkincisi, gəlinən nəticələrdən biri odur ki, iki dost ölkənin layihəsini çıxmaq şərtilə, Azərbaycan dövləti bütün bu işləri yalnız və yalnız özünün maliyyə imkanları hesabına həyata keçirir.

Üçüncüsü, xarici şirkətlər quruculuq prosesində iştirak etsələr də, görülən işlərin mütləq əksəriyyəti yerli inşaat qurumaları tərəfindən həyata keçirilir.

Bu amil ondan xəbər verir ki, bizim tikinti sahəsində çox böyük təcrübəmiz və peşəkar kadrlarımız var.

Nəhayət, gəlinən əsas nəticələrdən biri də odur ki, hazırki gedişat bütün layihələrin vaxtında icra ediləcəyini, ilkin hədəf olan 2026-cı ilə qədər Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli dərəcədə bərpa ediləcəyini göstərir.

# Как сегодня Азербайджан восстанавливает территории Карабаха




**Карабах. Время жить и строить**

Скоростные трассы, аэропорты, умные поселки, зеленая энергетика — Азербайджанская Республика на территории многострадального Карабаха не просто активно реализует программу «Большое возвращение», а стремится сделать из региона самую передовую часть страны. По приглашению азербайджанской стороны журналисты «СБ. Беларусь сегодня» посетили эти районы, чтобы увидеть, как осуществляется один из самых масштабных на сегодняшний день послевоенных проектов.

***(Начало в предыдущем номере).***

**Шуша. Город над бездной**

Путь от Физули до Шуши занимает около часа. Авто петляет по горному серпантину, поднимаясь все выше и выше, пока не достигает отметки в 1368 метров над уровнем моря. Город расположен на скале, в предгорьях Карабахского хребта. В Шуше мы знакомимся с руководителем отдела по связям с общественностью и информационному обеспечению одного из городских управлений Самаей Мамедовой. Будучи специалистом высокого уровня, она оставила высокопоставленную должность в Баку и перебралась в эту часть страны, чтобы внести свой вклад в восстановление региона:

***— Шуша — это моя любовь. Словами передать это чувство сложно. Когда мне нужно уехать из города, я каждый раз начинаю грустить. Как будто оставляю здесь что-то очень важное.***

Самая Мамедова проникновенно рассказывает о каждом из важнейших исторических зданий города. Шуша для Азербайджана — место особое. Его называют духовным центром страны, здесь жили известные культурные деятели Азербайджана. В их числе знаменитый поэт и государственный деятель Молла Панах Вагиф. Его мавзолей, построенный в 1980 е годы по указанию общенационального лидера Гейдара Алиева, был разрушен в ходе военных действий. Однако сегодня он бережно восстановлен благодаря личной инициативе Ильхама Алиева. Недалеко от мавзолея расположено еще одно место, без которого невозможно представить Шушу, — Джидыр Дюзю. От вида на скалистые Карабахские горы, который открывается на этом месте, захватывает дух. Когда-то здесь проходили скачки.

Во время поездки по строящемуся населенному пункту представитель городской администрации особо подчеркивает, что восстановление Шуши идет с учетом исторической значимости города:

***— Здесь будет новая школа на 960 учеников, вот там строится больница, отреставрирована мечеть. К концу года ожидаем первых переселенцев. В данный момент государство строит 23 дома на 450 квартир для коренных шушинцев, которые были вынуждены уехать. В результате первого этапа переселения мы ожидаем 1500 жителей, — рассказывает Самая Мамедова.***

Она отмечает, что по плану застройки в Шуше дома могут быть только до 5 этажей и исключительно отменного качества:

***— Работы, которые производятся в Карабахском регионе, находятся под контролем нашего Президента. И все — от архитектурных проектов до использованных материалов — на самом высоком уровне.***

**Лачин. Мечта, которая сбылась**

— Я родился здесь и должен был вернуться сюда, жил ради этого дня, — с Рауфом Шахсуваровым мы беседуем, стоя на шумном перекрестке в центре города Лачин. В этом населенном пункте, расположенном в горной местности на границе с Арменией, сегодня также активно ведутся строительные работы. Местный житель рассказывает, что принимал участие в двух азербайджанских войнах, но вернулся в родной город, чтобы отдать долг Лачину как актер и как режиссер:

***— С моей профессией я могу жить в любой части Азербайджана, но для меня самое лучшее место там, где я родился.***

76 летний Вагид Лачилэ, видя, как мы беседуем, также спешит поделиться своим счастьем. Звучат слова благодарности Президенту Азербайджана и признания о том, как важно касаться ногами родной земли.

Каково это — вернуться в родной город после 30 лет жизни в качестве беженца? Об этом мы беседуем с Октаем Мамедовым, представителем городской администрации Лачина. Он вспоминает, как в 1992 году ему пришлось покинуть дом. Собрал детей, жену, самое необходимое и на машине выехал из города. В Лачине осталось в буквальном смысле все нажитое. А дальше было тяжело. Но Октай Мамедов не сдавался. Он говорит, что все беженцы из Лачина верили, что тот день, когда они воссоединятся в родном городе, обязательно придет:

***— Бывшие жители Лачина сейчас проживают в 42 азербайджанских городах, это 3840 семей. В Лачин уже вернулись 223 семьи — 793 человека.***

Новых жителей здесь очень ждут. Хотя новыми их и не назовешь: несмотря на 30 лет разлуки они по-прежнему близки. Стороннему наблюдателю сложно было сдержать эмоции, видя, с какой теплотой бывшие соседи встречали друг друга. В город прибыли как непосредственно те, кто был вынужден уехать с началом войны, так и их дети и даже внуки.

77 летняя Фруза Хасанова как раз из тех, кто помнит город до войны. Она спешит поделиться своей радостью с журналистами:

***— Мы счастливы вернуться домой, на эту землю. Мечтали об этом всю жизнь. Нам очень нужен этот мир.***

Лачинский вечер встречи переселенцев идет плавно и размеренно. Под аплодисменты соседей главы семьи выходят к представителям администрации, чтобы получить ключи от своего нового дома. Вместе с ключами каждый житель получил специальную памятку от АНАМы. Разминирование региона продолжается, безопасность — прежде всего.



**Зангелан. Умная деревня**

Согласно планам азербайджанского правительства, Карабах должен стать зоной зеленой энергетики и передовых технологий. Чтобы увидеть, как это реализуется на практике, мы посетили одну из деревень Зангеланского района. Предполагается, что этот регион станет центром инноваций в области сельского хозяйства. Одно из нововведений — установка оросительных систем на полях и огородах на окраине села. Также там установлены станции для контроля сельхозвредителей. Уникальность поселения в том, что для его жизнеобеспечения будет использоваться солнечная энергия, ветроэнергетика и гидростанции.

Села Агалы-I, II и III Зангеланского района построены по системе smart. И это не то же самое, что, к примеру, умный дом. Как поясняет Зака Гулуев, сотрудник спецпредставительства Президента Азербайджана в Зангелане, Губадлы и Джабраиле, эта концепция подразумевает обеспечение современного качества жизни людей за счет применения инновационных технологий, используя все собственные ресурсы населенного пункта.

С первого взгляда проект деревни очень напоминает белорусский агрогородок, только с азербайджанским колоритом.

***— Здесь уже построено 200 домов, 86 семей переехали. На каждом доме — солнечные панели. Есть школа, детский сад. Планы — расширять поселок и дальше, — рассказывает Зака Гулуев.***

В одной из таких умных деревень мы познакомились с Рахилей Алмурадовой. До войны ее работа заключалась в обеспечении телефонной связи:

***— Это было прекрасное время. Мы жили тут очень счастливо. Но потом началась война.***

***Сегодня в новом доме она живет вместе с дочкой и внуками. На прощание Рахиля вручает пакет с овощами со своего огорода, просит сфотографироваться вместе и прислать ей фотографию. А затем обнимает и повторяет снова:***

***— Хотим, чтобы был мир и чтобы война больше никогда не повторилась.***

Чрезвычайный и Полномочный Посол Азербайджанской Республики в Республике Беларусь Ульви Бахшалиев:

***— Ожидаем, что Беларусь также внесет свой вклад в восстановление территорий Карабаха. Азербайджану интересен опыт строительства белорусских агрогородков. Он востребован при возведении деревень в Карабахе.***

По плану I Государственной программы «Большое возвращение» Азербайджанской Республики в 2022 — 2025 годах будут:

***- созданы и открыты контрольно-пропускные пункты на государственной границе,***
***- построены 34 500 квартир и индивидуальных жилых домов,***
***- утверждены генеральные планы семи городов,***
***- построен газопровод Агдам-Ханкенди и его ветки,***
***- построены 197 учебных заведений и др.***

**Источник: СБ. Беларусь сегодня**
**isaenok@sb.by**

# Обсуждено финансирование программы "Большое возвращение"



Этот вопрос был включен в повестку дня сегодняшнего заседания Экономического совета Азербайджана, сообщает во вторник Trend.

На заседании были подробно рассмотрены вопросы финансирования программы "Большое возвращение", параметры рамки среднесрочных расходов, прогнозы социально-экономического развития на среднесрочный период и другие текущие вопросы.

# В Азербайджане назван объем чистых финансовых активов

В первом полугодии 2023 году чистые финансовые активы сократились на 10 миллионов долларов США.

Об этом сообщил директор Департамента статистики Центрального банка Самир Насиров в ходе медиа-брифинга.

Согласно отчету, сокращение чистых финансовых активов было обеспечено за счет увеличения портфельных инвестиций в размере 500,6 миллиона долларов, а также снижения прямых иностранных инвестиций на 102,5 миллиона долларов и прочих инвестиций на 408,1 миллиона долларов.

За отчетный период чистые финансовые обязательства выросли на 498,6 миллиона долларов за счет увеличения нефтяного бонуса в размере 450,2 миллиона долларов, привлеченных прямых иностранных инвестиций на 2,979 миллиарда долларов и прочих инвестиций на 1,298 миллиарда долларов, а также сокращения репатриации привлеченных инвестиций на 3,647 миллиарда долларов, портфельных инвестиций - на 582,3 миллиона долларов.

Напомним, что в 2022 году чистые финансовые активы выросли на 7,779 миллиарда долларов




# Назван объем газа, экспортируемого из Азербайджана в Европу



В январе-августе 2023 года Азербайджан экспортировал в Европу 7,6 миллиарда кубометров природного газа (рост на 9 процентов).

Об этом написал министр энергетики Азербайджана Парвиз Шахбазов в социальной сети «X» (Twitter).

«В январе - августе 2023 года количество экспортируемого Азербайджаном природного газа в Европу составило 7,6 миллиарда кубометров, Турцию - 6,7 миллиарда кубометров и Грузию - 1,5 миллиарда кубометров. В отчетный период по TANAP в Турцию было экспортировано 3,8 миллиарда кубометров.

По оперативным данным, за 8 месяцев текущего года добыча нефтеконденсата составила 20,3 миллиона тонн, а экспорт - 17 миллионов тонн. За этот период было экспортировано 15,8 миллиарда кубометров из 32,2 миллиарда кубометров добытого газа (рост на 5 процентов)», - говорится в публикации министра.

# Расстояние до Ханкенди сократилось еще больше – конец сепаратистов близок

Проезд в Ханкенди грузовика с продовольственным грузом, направленного российским Международным обществом Красного креста (МККК) для лиц армянского происхождения, проживающих в Карабахском регионе Азербайджана, состоялся после двухдневной паузы, передает во вторник Trend.

Так, еще два дня назад грузовик ждал возле отеля «Барда», хотя проезд в Аскеран должен был быть обеспечен.

Сепаратисты в Карабахе и власти Армении в очередной раз продемонстрировали неконструктивную позицию, препятствуя въезду транспортного средства с продовольственным грузом для карабахских армян. Следует с сожалением отметить, что давления со стороны Международного комитета Креста Креста и Запада на Армению и сепаратистский режим практически не было.

Несмотря на то, что МККК на первый взгляд поддержал данный вопрос, за кулисами процесс был им искусственно блокирован. Это подтверждается и давлением, оказываемым Западом и МККК на Российское общество Красного Креста. Однако эта двуличность Международного комитета Красного Креста, который неоднократно нарушал закон в Карабахском регионе Азербайджана, что подтверждено фактами, все равно не сработала на руку армян и режиму сепаратистской хунты.

Превышая свои полномочия, МККК не раз занимался контрабандной деятельностью на ППП «Лачин», установленный Азербайджаном с целью предотвращения на свою территорию незаконных пересечений. Более того, МККК даже не выступил с инициативой доставки продовольственного груза этническим армянам по дороге Агдам-Ханкенди.

Несмотря на это, Азербайджан в очередной раз добился своего, и проезд российского грузовика по дороге Агдам-Ханкенди был обеспечен. Хотя армянские сепаратисты пытались выиграть время, задержав прохождение груза с помощью МККК и некоторых западных кругов, их усилия вновь не увенчались успехом.

Открытие агдамского маршрута уже решено. Так, сегодня утром грузовик с продовольственными и непродовольственными товарами Российского общества Красного Креста, уже проехал через Агдамский район и направился в Ханкенди.

# Qobustanda kiçik və orta biznesin dinamik və dayanıqlı regional inkişafda roluna dair müzakirə keçirilib



9 sentyabr 2023-cü il tarixində Qobustan rayonunda KOBİA-nın qrant dəstəyi ilə həyata keçirilən "Mikro, kiçik və orta biznesin Dağlıq Şirvan iqtisadi rayonunun inkişafında rolunun artırılması" layihəsinin icrası çərçivəsində KOBİA-nın region üzrə koordinatoru və KOB dostlarının dəstəyindən yararlanmaqla yerli sahibkarlarla görüş keçirilmişdir. Görüşdə rayon icra hakimiyyətinin məsul şəxsləri də iştirak etmişlər.

Layihənin icraçıları qismində görüşdə akademik Ziyad Səmədzadə, professor Rəsul Balayev iştirak etmişlər. İcraçılar tərəfindən mikro, kiçik və orta biznes potensialının Dağlıq Şirvan iqtisadi rayonunun dinamik sosial-iqtisadi inkişaf imkanlarının tədqiqi və onların gerçəkləşdirilməsi haqqında təkliflərin əsaslandırılmasının zəruriliyi, KOB amilinin dinamik, dayanıqlı və tarazlı regional inkişafda rolunun artırılması barədə tədbir iştirakçılarına məlumat verilmişdir.

Qobustan rayonunun tədbirdə iştirak edən KOB subyektləri təmsilçiləri həyata keçirilmiş tədbirlər, mikro, kiçik və orta biznesin istifadə olunmamış potensialı, sahibkarların üzləşdiyi problemlər və onların həlli istiqamətlərinə dair fikirlərini bildirmişlər. Rayonun sahibkarları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi səmərəli sosial-iqtisadi siyasətdən, ölkə başçısının sahibkarlara göstərdiyi qayğıdan, Qobustan rayonunda mikro, kiçik və orta biznesin inkişafında mühüm rola malik olan dövlət himayəsindən böyük razılıqla danışdılar. Rayon ərazisində bütün yaşayış məntəqələrinin elektrik enerjisi və təbii qazla etibarlı surətdə fasiləsiz təmin edildiyi, mövcud yolların təmiri və yeni yolların çəkilməsi istiqamətində geniş miqyaslı işlərdən bəhs olundu. Qeyd olundu ki, sadalanan və digər sistemli tədbirlərin nəticəyönümlüyü KOB subyektlərinin işgüzar fəallığına müsbət təsir göstərir.

Sahibkar Təmraz Ağaquliyev bildirdi ki, ölkə miqyasında nailiyyətlər çox böyükdür. Qobustan rayonunda da son illər dinamik inkişaf və onun müsbət nəticələri göz qabağındadır. Bununla belə, bir sıra hallarda sahibkarların müraciətlərinə lazımi reaksiya vermək üçün rayon səviyyəli orqanların səlahiyyətləri kifayət etmir.

Təklə kəndinin sakini, sahibkar Həsənağa Hüseynov göstərdi ki, son illər Qobustan rayonunda taxıl əkini sahələri xeyli dərəcə genişlənmişdir. Hazırda rayonumuz adambaşına taxıl əkini sahəsinə görə ön sıradadır. Bununla belə, kəndlərdə heyvanların sayı və heyvandarlıq məhsulları istehsalı kəskin azalır. Yemin tədarükündəki çətinliklər və hazır məhsulun bazara çıxışı vəziyyəti bu azalmanı şərtləndirən əsas səbəblərdir. Əlbəttə, emal müəssisələrinin olmaması da əsas problemlərdəndir. Rayon ərazisində heyvandarlıq məhsulları emalı üzrə kiçik müəssisələr yaratmaq məqsədəuyğundur.

Sahibkarlar elit toxumun kiloqramını 80-90 qəpikdən əldə etmiş, yaxşı aqrotexniki qulluq və cari ilin nisbətən yağıntılı olması sayəsində əvvəlki illərə nisbətən yüksək məhsuldarlığa nail olmuşlar. Buğda və arpanın keyfiyyəti də yüksəkdir. Bununla belə, taxılın 1 kiloqramının satış qiyməti 30 qəpik civarında olmaqla maya dəyərindən aşağıdır.

Fermer Məzahir Ağayev toxumluq taxılın baha olduğunu, on tonlarla (150 ton) hazır məhsulu sata bilmədiyini qeyd etdi. Bildirdi ki, cari ildə hər hektardan 35 sentner taxıl əldə edib. Ötən il buğdanın kiloqramını 50-60 qəpiyə satdığını söyləyən fermer göstərdi ki, bu il taxılın kiloqramını 31 qəpiyə istəyirlər. Bu fikri dəstəkləyən digər sahibkarlar bildirdilər ki, ilkin hesablamalara görə rayonda 5 min tona yaxın satılıq buğda vardır.

Aqrar sahədə çalışan kiçik sahibkar Natiq Qasımov güzəştli kreditləri əldə etməyin çətinliyini, girov qoyulmalı torpağın və daşınmaz əmlakın sənədləşdirilməsinin başa çatmadığını qeyd etdi. Görüş iştirakçıları bu problemin rayon mərkəzi üçün də xarakterik olduğunu göstərdilər. Qeyd edildi ki, aidiyyəti qurumlara müraciətlər edilmişdir. Kiçik torpaq sahələrinin pərakəndəliyi torpaqdan istifadə səmərəliliyini aşağı salır. Çoxsaylı müraciətlər həmçinin torpağın təyinatının dəyişdirilməsi ilə əlaqədardır.

Rayonda quşçuluğun inkişaf etdirilməsi üçün imkanlar mövcuddur. Belə ki, rayonda təcrübəli mütəxəssislər vardır. Yem bazasını yaratmaq mümkündür. Quşçuluğun inkişaf etdirilməsi üçün torpaq sahəsi ayrılmasına ehtiyac vardır.

Qobustan rayonu təbii-iqlim şəraitinə görə Dağlıq Şirvan iqtisadi rayonunda su probleminin daha kəskin olan ərazisidir. Müsbət haldır ki, rayonda içməli su problemi həll olunmuşdur. Bununla belə əkinlər üçün suvarma suyu və heyvanların su ilə təminatında ciddi problem vardır. Sel sularının sonrakı istifadəsi üçün onların yığılması üzrə anbarlar və müvafiq infrastruktur şəbəkəsinin yaradılmasının zərurliyi fikri xüsusi olaraq vurğulandı. Tədbir iştirakçısı olan KOB təmsilçiləri Qaradüzlü, Xilmilli və Sündü kəndlərində su anbarlarının inşasının məqsədəuyğun olduğunu söylədilər.

Sahibkar Mədət Əlləzov gənclərin heyvandarlığa, ümumilikdə kənd təsərrüfatına marağının az olduğunu bildirdi. Müvafiq istiqamətdə maarifçiliyin gücləndirilməsinin məqsədəuyğunluğunu qeyd etdi. Sahibkar Ağayar Bədəlov maldarlıqda cins tərkibinin yaxşılaşdırılmasında yem amilinin rolunu xüsusi vurğuladı. O bildirdi ki, yeni cinslərin yemə tələbatı yüksəkdir. Heyvandarlıq kompleksləri yaradılsa, bu problemi həll etmək olar.

Maliyyəyə çıxışın çətinliklərindən bəhs edənlər, həmçinin sığortalı sahibkarlara baş vermiş təbii fəlakətlər və bədbəxt hadisələr nəticəsində onlara çatacaq vəsaitin verilməsində ləngimələr olduğunu dedilər.

Qobustan qədim yaşayış məskənidir və burada xalq sənətkarlığı ənənələrinin bərpası insanların, o cümlədən qadınların, gənclərin məşğulluq səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rol oynaya bilər.

**Layihənin rəhbəri,**
**professor Rəsul Balayev**

# Azərbaycan "Doha Ekspo 2023"də təmsil olunacaq

Azərbaycan Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Doha Ekspo 2023" Beynəlxalq Bağçılıq Sərgisində milli pavilyonla təmsil olunacaq.

Oktyabrın 2-dən 2024-cü il martın 28-nədək fəaliyyət göstərəcək "Doha Ekspo 2023" "Yaşıl səhra, daha yaxşı ətraf mühit" ("Green Desert, Better Environment") mövzusunda təşkil ediləcək. Məqsəd davamlı innovasiyaları təşviq etmək və səhralaşma ilə mübarizə aparmaqdır.

Sərgidə 70-dən çox ölkə və 20-yə yaxın beynəlxalq təşkilat təmsil olunur. Ziyarətçilər ekspo çərçivəsində müasir kənd təsərrüfatı, texnologiya və innovasiyalar, ekoloji maarifləndirmə və davamlılıq mövzuları ilə tanış ola biləcəklər.

Beynəlxalq Sərgilər Bürosu və Bağçılıq İstehsalçıları Beynəlxalq Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində təşkil olunan "Doha Expo 2023" sərgisinin 3 milyondan çox ziyarətçi qəbul edəcəyi gözlənilir.



# Ölkəyə gələn turistlərin sayı açıqlanıb

"Bu ilin 8 ayında ölkəmizə 1 milyon 344 mindən çox turist səfər edib".

Bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının illik fəaliyyətinin yekunlarına dair konfransda deyib.

O bildirib ki, əsas hədəf ölkə turizmini inkişaf etdirməkdir:

*"İnkişaf deyərkən turistlərin sayında, coğrafiyasında və turist xərcləməsində artıma nail olmağı nəzərdə tuturuq. Bunun üçün birlikdə çalışmalıyıq. Əsas hədəf 2026-cı ildə ölkəyə gələn xarici turistlərin sayını 4 milyon nəfərə çatdırmaqdır.*

*Növbəti 4 il üçün turizmin ÜDM-də payını 2019-cu illə müqayisədə 1,5 dəfə artırmaq niyyətindəyik. Orta hesabla hər il 20 faiz artıma nail olmaq istəyirik. 2026-cı ildə qədər yerli turistlərin sayını 6 milyon nəfərə, turizmdən gələn gəlirləri 10 milyard manata çatdırmaq əsas hədəflərimizdəndir".*



# Fərdi sahibkarlar tərəfindən 45,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2023-cü ilin yanvar-avqust aylarında 45,1 milyard manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz az sənaye məhsulu istehsal edilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, neft-qaz sektorunda məhsul istehsalı 1,4 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 6 faiz artıb. Sənaye məhsulunun 68,6 faizi mədənçıxarma sektorunda, 26,2 faizi emal sektorunda, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,6 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 5,3 faiz artıb.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 97,1 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 80,4 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 52,1 faiz, poliqrafiya məhsullarının istehsalı 30,1 faiz, kağız və karton istehsalı 27,2 faiz, içkilərin istehsalı 26,7 faiz, tikinti materiallarının istehsalı 26,4 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 23,5 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 20,9 faiz, hazır metal məmulatlarının istehsalı 17 faiz, maşın və avadanlıqların istehsalı 14,9 faiz, neft məhsullarının istehsalı 13 faiz, qida məhsullarının istehsalı 11,2 faiz, tütün məmulatlarının istehsalı 6 faiz, kimya sənayesi məhsullarının istehsalı 6,0 faiz, mebel istehsalı 6,0 faiz, əczaçılıq məhsullarının istehsalı 2,8 faiz artıb, elektrik avadanlıqlarının istehsalı 0,7 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 6,7 faiz, geyim istehsalı 13,6 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 17,7 faiz, sair sənaye məhsullarının istehsalı 30,5 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 30,7 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 31,4 faiz azalıb. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,9 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 15,6 faiz artıb.



# Dəyərlərimizə sahib çıxaq



***XALQ YAZIÇISI ÇİNGİZ ABDULLAYEVİN ƏLEYHİNƏ YERSİZ İTTİHAMLAR BÜTÖVLÜKDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ QARŞI YÖNƏLDİLMİŞ İTTİHAMLARDIR.***

***Bu yaxınlarda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə ölkəmizdə ilk dəfə Azərbaycan Dili və Ədəbiyyatı Forumu keçirildi. Ümumiyyətlə, ölkəmizdə keçirilən bu cür yüksək səviyyəli tədbir, forum və elmi-ədəbi müzakirələrin ədəbiyyatımıza faydası şübhəsizdir və bizi çox sevindirir.***

Amma və lakin... İstər dövlətin, istər özəl sektor nümayəndələrinin təşkil etdiyi, təşəbbüs göstərib həyata keçirdiyi bu cür mötəbər və möhtəşəm işlərdən sonra bir qrup insanın qaşınmayan yerdən qan çıxarmağa çalışmasını hər dəfə böyük təəssüf hissi ilə müşahidə edirik. Görülən işlərin faydasını görmək istəməyən bu insanlar hansısa əhəmiyyətsiz bir məqamı böyüdüb bütün diqqətləri ora yönəltmək üçün çalışırlar.

Azərbaycan Dili və Ədəbiyyatı Forumundan sonra həmin dəstə yeni mövzu tapıb. Bu dəfə onların hədəfinə Azərbaycanın Xalq yazıçısı, bütün dünyada sevilə-sevilə oxunan məşhur detektiv əsərlərin müəllifi Çingiz Abdullayev tuş gəlib. Ümumiyyətlə, artıq neçənci dəfədir ki, Xalq yazıçımızın nitqini hədəfə alan "psevdointellektuallar" müxtəlif sosial platformalarda var gücləri ilə onu "şəbədə" obyektinə çevirməyə çalışırlar.

Əvvəla, bunu xatırlatmaq istəyirik ki, Çingiz Abdullayevin əsərləri onlarla xarici dilə çevrilib və nəinki MDB məkanında, ABŞ, Bolqarıstan, Rumıniya, İsrail, Fransa, İsveç, Norveç, Türkiyə kimi ölkələrdə milyonlarla nüsxə satılır. Onun kitabları əsasında Rusiyada - ***"Dronqo" və "Lisenziyasız detektiv" serialları, Azərbaycanda isə "Məhkumların cənnəti", "Tərsinə çevrilmiş dünya" və "Xeyir və Şərin rəqsi" filmləri çəkilib.***

Sual veririk - Azərbaycanın dünya miqyasında bu sanbalda tanınan və əsərləri milyonlarla nüsxədə satılan ikinci bir yazıçısı varmı? İkinci sualımız - həmin şəbəkə şəbədəçilərindən hansısa biri Çingiz Abdullayevin bu vətənə verdiyi mənəvi faydanın milyonda biri qədər xidmət göstəribmi?

Yazıçıya yönələn hədyanların fonunda onun ölkədən çıxıb getməklə bağlı fikir səsləndirməsi başadüşüləndir, lakin bu vətəni və milli dəyərlərimizi qoruyan və yaşadan xalqımızı bir ovuc qaragüruhun ümidinə qoyaraq meydandan çəkilib getmək qəbuledilməzdir. Çingiz Abdullayev bu vətənin, bu millətin təəssübkeş oğludur və hər zaman dövlətinə, xalqına ləyaqətlə xidmət edib. Biz dəfələrlə onun önəmli müstəvilərdə dövlətimizin, xalqımızın haqq işini necə hərarətlə müdafiə etdiyinin şahidi olmuşuq. Çox da uzaq tarix deyil - 44 günlük Vətən müharibəsi dönəmində Çingiz Abdullayevin 2020-ci il oktyabrın 7-də "Rossiya 1" telekanalında "Vladimir Solovyovla axşam" siyasi tok-şousunun efirindəki möhtəşəm çıxışını da unutmamışıq: "Razılaşın ki, bu, azərbaycanlıları olduqca incidir - niyə heç kim onların taleyindən bəhs etmir? Hər onuncu şəxs praktiki olaraq öz doğma evindən məhrumdur. Azərbaycan nə istəyir? Məncə, bizim prezidentimiz dəqiq və aydın söylədi: *erməni işğalçı qüvvələrinin bu 7 rayondan çəkilməsini və burada azərbaycanlıların məskunlaşmasını. Özü də o, sadəcə 7 rayon demədi, o anlayır, qarşı tərəfi* - Ermənistanı da anlamaq istəyir, deyir: gəlin torpaqların mərhələli *boşaldılmasına başlayaq - Dağlıq Qarabağ ətrafındakı 5 rayonu və 2 rayonu - onların bəhs etdiyi həmin o dəhlizi. Mərhələli boşaldılma. Xarici qoşunların geri çəkilmə qrafikinə ehtiyac var. Sonra Qarabağda heç kim heç kimi qovmağa hazırlaşmır.* Bundan əlavə, prezident dedi: *Azərbaycan və erməni əhalisi, yüz illərdir olduğu kimi, hazırda Bakıda olduğu kimi, birlikdə, dostluq şəraitində yaşamalıdırlar. Axı niyə heç kim demir ki, bu gün Azərbaycanda - Bakıda 30 min erməni yaşayır? Ermənistanda isə bircə nəfər də azərbaycanlı yoxdur.* Bizim beynəlmiləl respublika olduğumuzu, bizdə 150 mindən çox rus əhalisinin yaşadığını, gürcülərin yaşadığını demirlər. Bu gün bizim bəhs etdiyimiz əsas şey - bizim torpaqlarımızın azad edilməsidir. Niyə heç kim bizi başa düşmək istəmir?! Hər iki tərəfdən infrastruktur məhv edilir, amma bu, bizim torpağımızdır, Azərbaycan torpağıdır. Nəhayət, başa düşün ki, hər şeydən əvvəl, biz əziyyət çəkirik. Bu müharibə bizdə gedir. Sizin Çeçenistanda müharibəniz gedəndə biz sizin ağrınızı anlayırdıq. Çünki bu, Rusiyanın ərazisi idi. Siz nəyə görə bu gün bizim ağrımızı anlamaq istəmirsiniz? Çünki artıq 30 ildir ki, bu danışıqlar heç nəyə gətirib çıxarmadı, insanları bu müharibəyə getməyə sadəcə məcbur etdilər və indi azərbaycanlılar yalnız bir şey istəyir - istəyirlər ki, xarici dövlətin işğalçı qoşunları bizim torpaqları tərk etsin. Vəssalam..."

Hələ onu demirik ki, bir çox xarici ölkələrdə kitab mağazalarında Çingiz Abdullayevin kitablarını almaq üçün növbəyə dayanan oxucuların sayı kifayət qədərdir. Bu qaragüruhlar hələ də dərk edə bilmirlər ki, hansı dildə çap olunmasından, yaxud onun müəllifinin hansı dildə danışıb, hansı ləhcədə fikrini ifadə etməsindən asılı olmayaraq, Çingiz Abdullayev imzalı dəyərli sənət əsərləri xarici ölkələrdəki kitab rəflərində məhz Azərbaycan yazıçısının mənəvi ünvanı olaraq yer alır.

Yeri gəlmişkən, xatırlatmaq istərdik ki, "Azərbaycan" qəzetinin baş redaktoru, hörmətli Bəxtiyar Sadıqov 2021-ci ilin mayında sosial şəbəkə terroru haqqında dəyərli bir yazı yazmışdı.

Düşünürük ki, həmin yazıdan bəzi fikirləri burada xatırlatmağa yenidən ehtiyac yaranıb: "Sosial şəbəkələrdə insanların bir-birlərini təhqir etməsi, hayıf çıxması, ələ salıb məsxərəyə qoyması ürək ağrıdır! Axı sosial şəbəkə ictimai söz meydanıdır, burada yazılanları hamı görür, oxuyur! Görünməyən təkcə içimizdəki xıltdır, üz qızartısıdır, ürək tutmalarıdır.

Hərdən düşünürük ki: niyə bəzən cəmiyyətin seçilmişlərinə, ziyalılarımıza, dövlət məmurlarına qarşı bu qədər kinliyik, amansızıq? Bəlkə bu, sovet repressiyasının ziyalılara, tanınmışlara və seçilmişlərə qarşı cəzalandırma, asma, kəsmə, güllələmə, sürgünə göndərmə kampaniyalarının şüurumuzda kök salmış qalıqlarıdır?.. Vay o gündən ki, bir ziyalının əlindən bir xəta çıxa... Vay o gündən ki, bir tanınmış yanlış addım ata... Vay o gündən ki, bir deputat ağzından "bişməmiş söz" çıxara, yaxud "redaktə olunmamış" fikir söyləyə... Paho!!! Dünya qopur! Dünya dağılır! Dərhal sovet dövrünün terror maşınına bənzəyən "sosial şəbəkə mexanizmi" işə düşür!

...Elə bil bir qisim adam marığa yatıb. Elə bil fürsət gözləyirlər: *Kimisə qaralamağa... Kimisə yaralamağa... Kiminsə axırına çıxmağa... Niyə hamı özündən başqa qeyrilərini "natəmiz", "cinayətkar" sayır?!*

Bu nə mövqedir?! Bu nə yanaşmadır?! Niyə 44 günlük Zəfər müharibəsindəki möhtəşəm birliyimizi qoruyub saxlamayaq?!"

Bəxtiyar Sadıqov həmin yazıda Xalq şairi Fikrət Qocanın çox sevdiyimiz şeirindən bir bənd misal da çəkib. Şeirin müəllifinə rəhmət, onu yazısında qeyd edənə minnətdarlıq duyğusu ilə o misraları yenidən xatırladırıq:

***Babalarımız qoçaq olub,***
***mərd olub,***
***Bəs bu namərdlər hardandı,***
***Bax, bu mənə dərd olub...***

...Çingiz Abdullayevi şəxsən tanıdığımız, onun doğma Azərbaycanımıza, dilimizə, tariximizə və mədəniyyətimizə nə qədər bağlı insan olduğunu bildiyimiz üçün ona yönələn haqsız hücumlar, yersiz ittihamlar bizi də incidir. Biz Xalq yazıçısı Çingiz Abdullayev əleyhinə yersiz ittihamları Azərbaycan mədəniyyətinə qarşı yönəldilmiş ittihamlar kimi qəbul edirik.

Çingiz Abdullayev artıq Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri ilə bir sırada dayanır və bunu görməmək sadəcə riyakarlıqdır. Digər tərəfdən, indiki çox həssas məqamda, tariximizin çətin bir mərhələsində görkəmli ziyalılarımıza qarşı bu cür ittihamlar irəli sürmək düşmənlərimizin dəyirmanına su tökməyə bərabərdir. İttiham edəndə düşünmək lazımdır ki, sən özün kimsən və kimi ittiham edirsən. Özü də dərindən düşünmək gərəkdir...

**Hüseynbala MİRƏLƏMOV,**
**Rövşən AĞAYEV**

## *Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Şirin Mirzəyev (1947-1992)



Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant, Qarabağ müharibəsi şəhidi, əslən Şuşanın Mirzələr kəndindən olan Şirin Vəli oğlu Mirzəyev 1947-ci il yanvar ayının 5-də Xankəndidə dünyaya göz açmışdır. Nizami adına beynəlmiləl orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşmüşdür. Bir müddət Bakıda yerləşən Daxili Qoşunlar alayında xidmət etdikdən sonra 1967-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərindəki Ali Siyasi Hərbi məktəbə qəbul olmuş və 1971-ci ildə hərbi təhsilini müvəffəqiyyətlə başa vurub, təyinatla İrəvana göndərilmişdir. Beş il orada xidmət etdikdən sonra isə Bakıya qayıtmışdır. Daha sonra 1976-cı ildə öz sinif yoldaşı Flora Qasımova ilə ailə qurmuşdur. Bu evlilikdən onların iki uşağı dünyaya gəlmişdir. 1988-ci ildə Moskvada Hərbi Siyasi Akademiyada təhsil alaraq, Daxili Qoşunlar alayında 15 illik xidmət yolu keçmişdir.

1991-ci ildə qəlbində alovlanan Vətən məhəbbəti, vətənə xidmət arzusu onu Ağdama çəkib gətirdi. Özü də elə bir vaxtda ki, onun kimi peşəkar hərbçilərə vətənin böyük ehtiyacı var idi. 1990-1991-ci illərdə Qarabağda ermənilərin təxribatları artdığından könüllü hərbi birləşmənin yaradılması artıq zəruri olmuşdu. Məhz buna görə də 1991-ci ilin avqustunda Ş.Mirzəyev Ağdama yollanır. 1991-ci ilin oktyabr ayında bütün maneələrə və təqiblərə baxmayaraq, polkovnik-leytenant Şirin Mirzəyev respublikamızda ilk nizami özünümüdafiə batalyonunu min bir əziyyətlə yaradır. Bu, o dövr üçün çox zəruri bir addım idi. Artıq 1992-ci ilin may ayında üç tabordan ibarət alay yaradıldı. Ş.Mirzəyev Ağdam rayonunun həm hərbi komissarı, həm də alay komandiri kimi məsul vəzifələri çox bacarıqla yerinə yetirirdi. 1992-ci ilin mart ayının 28-də Şirin Mirzəyevin və onun tərəfdarlarının səyi nəticəsində respublikada 1-ci olan tabor yaradıldı və ürəyi Vətən sevgisilə çırpınan podpolkovnik Şirin Vəli oğlu Mirzəyev Ağdam rayon ərazi özünümüdafiə taborunun komandiri seçildi. O, 18 iyun 1992-ci ildə Sırxavənd istiqamətində üç komandirlik etdiyi alayla birlikdə yenidən ön cəbhəyə yollanır. Tankları yerləşdirdikdən sonra hazırlıq üçün arxa cəbhəyə geri qayıdarkən onun avtomobili minaya düşür və o, şəhid olur. 1993-cü il fevral ayının 5-də Şirin Mirzəyevin şəxsi təşəbbüsü ilə yaradılmış tədris taboru ləğv edildi.

Ş.Mirzəyevin yolu respublikada örnək göstərilə biləcək döyüş yoludur. Belə ki, onun sərkərdəlik qabiliyyəti nəticəsində Fərrux, Pircamal, Qazançı, Ballıqaya, Qaraşlar, Bəşirli, Sırxavənd, Ağbulaq, Dəhraz, Naxçıvanik kəndləri erməni quldurlarından azad edildi.

Hərbi jurnalist İbrahim İbadoğlu Şirin Mirzəyevin həyatından bəhs edən "Sərkərdə" kitabının müəllifidir. Deputat Flora Qasımova Şirin Mirzəyevin həyat yoldaşıdır. Oğlu polis əməkdaşıdır, daxili işlər orqanlarında çalışır. Qızı isə ingilis dili müəlliməsidir.

***Mükafatları***

1994-cü ildə "Qızıl Ulduz" medalı (ölümündən sonra), "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə təltif edilib.

Adına Bakı şəhərində küçə var. Xidmət etdiyi 836-cı hərbi hissənin həyətində abidəsi qoyulmuşdur.

2021-ci ildə Türkiyənin Bursa vilayətində Milli Qəhrəman Şirin Mirzəyevin adını daşıyan park açılıb.

# Azərbaycanın büdcə gəliri artıb - 5 milyard dollardan çox profisit yaranıb



Bu ilin yanvar-iyun aylarında Azərbaycanın tədiyə balansının ümumi profisiti 5 milyard 245 milyon ABŞ dolları təşkil edib.

Trend Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 13,2% çoxdur.

Ümumi qalıq ölkənin cari əməliyyatlar balansındakı 5 milyard 154,6 milyon ABŞ dollarlıq profisit (əvvəlki illə müqayisədə 2 dəfə və ya 50,1% az), kapital hesabındakı 6,8 milyon ABŞ dollarlıq kəsir (68 dəfə çox), maliyyə hesabındakı 508,6 milyon ABŞ dollarlıq profisit (əvvəlki il kəsir olub), balanslaşdırıcı maddələr üzrə 411,4 milyon ABŞ dollarlıq kəsir (3,1% çox) hesabına formalaşıb.

# Birinci yarımillikdə Azərbaycana birbaşa investisiyaların həcmi açıqlanıb



"2023-cü ilin birinci yarısında Azərbaycana birbaşa xarici investisiyalar (BXİ) 2,979 milyard dollar olub".

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) Statistika departamentinin direktoru Samir Nəsirov media-brifinqdə deyib.

2022-cü ilin yanvar-iyun ayları ərzində Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 3,22 milyard dollar olub. Beləliklə, 2023-ci ilin birinci yarısında BXİ 7,5 faiz azalıb.

"**Qeyri-neft sektoruna cəlb edilən BXİ-nin ümumi məbləği 717 milyon dollar olub (il ərzində 34,6 faiz azalma). Azərbaycan iqtisadiyyatına BXİ-nin həcminə görə lider ölkələr beşliyinə aşağıdakılar daxildir: Böyük Britaniya - 896,447 milyon dollar (6,3 faiz artım), Türkiyə - 575,685 milyon dollar (19,7 faiz artım), Kipr - 384,565 milyon dollar (16 faiz azalma), Rusiya Federasiyası - 245,867 milyon dollar (12,4 faiz)**", - o deyib.

Azərbaycana birbaşa investisiyaların həcminə görə lider ölkələr onluğuna həmçinin aşağıdakılar daxildir: Yaponiya - 128,458 milyon dollar, Niderland - 98,996 milyon dollar, Macarıstan - 95,348 milyon dollar, ABŞ - 79,778 milyon dollar və Norveç - 73,581 milyon dollar.

# Ağdam-Xankəndi yolu açıldı



Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən ərzaq və qeyri-ərzaq məhsulları ilə, ümumilikdə bir TIR ərzaq yükü artıq Ağdam rayonundan keçərək Xankəndinə doğru hərəkət edib.
“Scania” markalı ağırtonnajlı yük maşını artıq Xankəndindədir.
Rusiya hökumətinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Rusiya Qızıl Xaç Cəmiyyətinin birgə əməkdaşlıq memorandumuna əsasən, Rusiya tərəfindən Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin ərzağa olan ehtiyaclarının qarşılanması məqsədi ilə, Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən göndərilən ərzaq və qeyri-ərzaq məhsulları ilə, ümumilikdə bir TIR ərzaq yükü 2 gün Bərdə şəhərində gözlədilirdi. Separatçı erməni dəstələri humanitar yardımın Ağdam-Xankəndi yolu ilə Xankəndiyə getməsinə maneə törədirdi.
Separatçıların iddialarına görə, Xankəndidəki xunta Ağdam-Xankəndi yolunda, Əsgəran yaxınlığında yolu bağlamış ermənilərə qarşı “güc” tətbiq edib və Rusiya Sülhməramlı Kontingentinin (RSK) iştirakı ilə yolu açıb.
Əsgəranın “mer”i Hayk Şamiryanın dediyinə görə, “Tank” abidəsinin yaxınlığına toplaşaraq yolu bağlamış şəxslər ilk əvvəl etiraz aksiyası keçirərək Rusiyanın humanitar yardımını buraxmasalar da, sonradan fikirlərini dəyişiblər: “Danışdıq, razılaşdıq, yolu açdıq və maşın hərəkət etdi”.
Ermənistandakı revanşistlər və radikallar qarabağlı ermənilərin əvvəl etiraz edərək yolu bağlamalarını, sonra fikirlərindən vaz keçərək yolu açmalarını “murdar davranış”, “xəyanət”, “türklərin pulu və rusların əmri ilə hərəkət edən bədbəxtlərin satqınlığı” kimi dəyərləndiriblər.
Laçın yolunun Azərbaycan qanunvericiliyinə uyğun şəkildə, sərhəd və gömrük nəzarət-təftiş prosedurlarının həyata keçirilməsi şərti ilə BQXK üçün tam açılması üçün bu qurumun Xankəndinə ünvanladığı humanitar yardımlar yalnız Ağdam-Xankəndi yolu ilə daşınmalıdır.
Laçındakı SBNM-in qarşısında, Ermənistan ərazisində “Spayka” şirkətinin 20 TIR-ına gəldikdə isə bu maşınlar çürüyənədək orada saxlana bilər.
İrəvanın “humanitar yardımı” Xankəndiyə nəzarətsiz və gömrük sənədləşdirilməsi olmadan buraxılmayacaq.
Proseslər sürətlə inkişaf edir və yaşananların tərkib hissələrindən biri də ermənilərin amerikalılarla birgə keçirdikləri “Eagle Partner 2023” hərbi təlimlərdir.
Ermənistan Müdafiə Nazirliyinin “Zor” poliqonundakı təlimlərdə 85 amerikalı hərbçi iştirak edir. Sentyabrın 20-də başa çatacaq təlimlərlə bağlı rəsmi bəyanatlara görə, “Ermənistan və ABŞ hərbçiləri beynəlxalq sülhməramlı missiyalara hazırlıq məqsədilə birgə fəaliyyət təlimlərini məşq edəcəklər”.
Təlimlər Rusiya Federasiyasının hakimiyyət dairələri tərəfindən çox ciddi narazılıqla qarşılanıb.

# Əmtəə ixracı azalıb

Bu ilin altı ayında əmtəə ixracı 19.8 faiz azalaraq 15.2 milyard dollar təşkil edib.
Azərbaycan Mərkəzi Bankından bildirilib ki, dövr ərzində əsasən dünya neft bazarlarında xam neftin və təbii qazın qiymətlərinin əlverişli olması şəraitində neft-qaz sektoru üzrə ixracın həcmi 13.4 milyard dollar olub. İxrac olunmuş neft-qaz məhsullarının (13.4 milyard dollar) 8 milyard dolları xam neftin, 5 milyard dolları təbii qazın, 0.4 milyard dolları isə neft emalı məhsullarının payına düşür. 2023-cü ilin 6 ayı üzrə qeyri-neft-qaz ixracı 23.3 faiz artaraq 1.7 milyard dollar olub.
2023-cü ilin 6 ayı üzrə əmtəə idxalı 30.4 faiz artaraq 7.7 milyard dollar təşkil edib, o cümlədən istehlak mallarının idxalının ümumi dəyəri isə 3.1 milyard dollar olub, bunun da 1.0 milyard dolları ərzaq məhsullarının payına düşür. Qeyri-neft-qaz sektoru üzrə idxal 18.2 faiz artaraq 5.7 milyard dollar olub. Qeyri-neft-qaz idxalının strukturunda minik avtomobillərinin (95.6 faiz), mebel məhsullarının (41.9 faiz), ətir və kosmetik vasitələrinin (41.8 faiz), tütün məhsullarının (40.9 faiz), sabun və yuyucu vasitələrinin (29.4 faiz), ağac məmulatlarının (20.7 faiz), daş və şüşə məmulatlarının (17.6 faiz), metalların (13.3 faiz), alkoqollu və alkoqolsuz içkilərinin (11 faiz), şəkərin (9.7 faiz) və dənli bitkilərin (4.6 faiz) idxalı artıb.




# S&P Azərbaycanda avqust ayı ərzində neft hasilatı üzrə məlumatları açıqlayıb

“S&P Global Platts”ın qiymətləndirmələrinə görə, Azərbaycanda avqust ayı ərzində neft hasilatının həcmi iyul ayından etibarən dəyişməz qalaraq gündəlik 500 min barel olub. Qeyd olunub ki, ölkənin gündəlik xam neft hasilatı üzrə kvotası 684 min bareldir.
Beləliklə, Azərbaycanda qeyd olunan dövrdə müəyyən edilən kvotadan 184 min barel az neft hasil olunub.
“S&P”nin məlumatlarına görə, OPEC+ ölkələrinin xam neft hasilatı avqust ayında 120 min barel artıb. “Belə ki, İranda, İraqda və Nigeriyada hasilatın artması Səudiyyə Ərəbistanı və Rusiyada hasilatın azalmasını yetərincə kompensasiya edib”.
Qeyd edək ki, Azərbaycanda neft hasilatının 65 faizdən çoxu “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun payına düşür.

# 8 ay üzrə qaz hasilatı artıb



2023-cü ilin yanvar-avqust ayları üzrə operativ məlumatlara əsasən, 8 ay ərzində Azərbaycanda 32,2 milyard kubmetr təbii qaz hasil edilib.
Bu barədə Energetika Nazirliyindən məlumat verilib.
Qazın 8,6 milyard kubmetri “Azəri-Çıraq-Günəşli”dən, 17,6 milyard kubmetri “Şahdəniz”dən, 0,2 milyard kubmetri “Abşeron”-dan, 5,8 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 5 faiz, yəni 1,5 milyard kubmetr artımla qaz hasil edilib.
Hesabat dövründə xaricə qaz satışı 15,8 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz çoxdur. Cari ilin yanvar-avqust aylarında Avropaya 7,6 milyard kubmetr, Türkiyəyə 6,7 milyard kubmetr, Gürcüstana isə 1,5 milyard kubmetr qaz satılıb. Bu müddətdə Türkiyəyə TANAP-la 3,8 milyard kubmetr qaz nəql olunub.
“Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqları istismara veriləndən 01 sentyabr 2023-cü il tarixinədək “Azəri-Çıraq-Günəşli”dən 212 milyard kubmetr, “Şahdəniz”dən isə 200,3 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə “Şahdəniz” yatağından hasil edilən qazın 141,5 milyard kubmetrə yaxını ixraca nəql edilib.
2023-cü ilin yanvar-avqust ayları üzrə ölkədə 20,3 milyon ton neft (kondensatla birlikdə) hasil edilib.

# İlkin gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi açıqlanıb



2023-cü ilin II rübündə ilkin gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi 3.5 mlrd. dollar olub. Bunun 76%-ni 2.7 mlrd. dollar olmaqla Azərbaycandan qeyri-rezidentlərə ödənişlər təşkil edib.
Qeyd edək ki, bu məbləğin əsas hissəsini (2.1 mlrd.$) xarici investorların payına düşən gəlirlərin repatriasiyası (o cümlədən, 2 mlrd. dollar beynəlxalq neft-qaz konsorsiumları üzrə əsasən xam neft və təbii qaz şəklində repatriasiya), qiymətli kağızlar portfeli üzrə qeyri-rezidentlərə ödənilən faizlər (161.6 mln. dollar), xarici kreditlərdən istifadəyə görə ödənilən faizlər (232.1 mln. dollar) və digər ödənişlər (142.8 mln. dollar) təşkil edib.

# İqtisadi artımın həcmi açıqlanıb

Bu ilin yanvar-avqust aylarında ölkədə 80 milyard 96,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.
Dövlət Statistika Komitəsindən bildirilir ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,1 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 2,6 faiz artıb.




ÜDM istehsalının 42,4 faizi sənaye, 9,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,8 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,6 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil etmişdir.
Əhalinin hər nəfərinə düşən ÜDM 7895 manata bərabər olub.

# Böyük Qayıdış Proqramının maliyyələşdirilməsi müzakirə edilib

Bu, İqtisadi Şuranın sentyabrın 12-də keçirilən iclasının gündəliyinə daxil edilib.
İclasda Böyük Qayıdış Proqramının maliyyələşdirilməsi, Ortamüddətli Xərclər Çərçivəsinin parametrləri, ortamüddətli dövr üçün sosial-iqtisadi inkişaf proqnozları və digər cari məsələlər ətraflı müzakirə olunub.
Qeyd edək ki, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib. İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Samir Şərifovun və əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məruzələri dinlənilib.

# Banklar istehlak kreditlərinə olan tələbin artacağını gözləyir

Azərbaycan bankları bu ilin III rübündə istehlak kreditlərinə olan tələbin 13% artacağını gözləyir. Trend xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) kreditləşmə fəaliyyətinə dair sorğunun nəticələrində bildirilib.
Bildirilir ki, istehlak kreditlərin tərkib hissəsi olan avto kreditlərə olan tələbin 6%, kartlarla kreditə olan tələbin 17%, əməkhaqqı ilə kreditlərə olan tələbin 10 %, məişət kreditlərinə tələbin isə 8 % artacağı proqnozlaşdırılır. Sorğunun nəticələrinə əsasən, bu ilin II rübündə Azərbaycan banklarında istehlak kreditlərinə tələb 29% artıb.



Həmçinin avto kreditlərə olan tələb 4%, kartlarla kreditə olan tələb 8%, əməkhaqqı ilə kreditlərə tələb 8%, məişət kreditlərinə tələb isə 10% artıb.

# “Bakı limanında terminal inşa etməyi planlaşdırırıq”

Bunu Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel “Azərbaycan-Qazaxıstan münasibətləri: regional əməkdaşlıq” mövzusunda dəyirmi masada deyib.
*“Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) müvafiq şərtlərdə Qazaxıstandan ixrac olunan malları yükləmək imkanına malikdir. Qazaxıstan Bakı limanında öz terminalını tikməyə hazırdır. Hazırda bununla bağlı danışıqlar aparırıq”*, - deyə o vurğulayıb.
Onun sözlərinə görə, nəqliyyat-logistika sektoru Azərbaycan-Qazaxıstan əməkdaşlığının “onurğa sütunu” olacaq.

# Çingiz Abdullayev öz yaradıcılığı ilə Azərbaycanı dünyada tanıdan milli dəyərdir

***Tarix boyu hər bir dövlətin, xalqın, toplumun, fərdi olaraq hər kəsin ziyalı sözünə ehtiyacı olub. Hər bir tarixi dövrdə ziyalıların mövqeyinə ehtiyac duyulub və indi də belədir. Əlalxüsus mənəvi və əxlaqi dəyərlərin xüsusilə əhəmiyyətli rol oynadığı cəmiyyətlərdə ziyalılara böyük dəyər verilib, onlara dərin ehtiram göstərilib. Çünki əsl ziyalılar həmişə cəmiyyətə doğru yol göstəriblər, xalqın intibahında əvəzsiz rol oynayıblar.***

Nizami, Füzuli, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyli, Niyazi, Əziz Əliyev, Azad Mirzəcanzadə, Xudu Məmmədov, Sabit Orucov, Heydər Əliyev və adlarını çəkmədiyim neçə-neçə elm adamlarımız, şair və yazıçılarımız, siyasətçilərimiz, korifey sənətkarlarımız xalqımızın milli düşüncəsinin formalaşmasında, tarixində rol oynayan böyük ziyalılarımızdır.

***Adı dünyanın sayılıb-seçilən siyasi liderləri ilə bir cərgədə çəkilən Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həyat tərzləri, insanlarla ünsiyyətləri əsl ziyalılıq məktəbidir.***

Təsadüfi deyil ki, bu gün dünyada Azərbaycan xalqının dünyagörüşündən, təfəkküründən, bəşəri dəyərlərə töhfələrindən söz düşəndə ilk olaraq ziyalılarımız yada düşür. Bu baxımdan ziyalılar xalqımızın milli sərvətidir. Onları qorumalı, uca tutmalı, irslərini təbliğ etməliyik.

Lakin son vaxtlarda Azərbaycan ziyalılarının öndə gələn nümayəndələrindən olan xalq yazıçısı Çingiz Abdullayevin barəsində kütləvi informasiya vasitələrində səslənən qərəzli fikirlər, əsasən onun şəxsiyyətinə yönəlmiş ittihamlar dərin narahatlıq doğurur. Çünki söhbət yalnız ölkəmizdə deyil, onun hüdudlarından kənarda da sevilən, imzası ilə Azərbaycanı dünyaya tanıdan bir dəyərli yazıçımızdan, ziyalımızdan, nasirdən, publisistdən gedir. O şəxsdən ki, dünyanın harasında olursa olsun, özünün və ya əsərlərinin adı çəkiləndə Azərbaycan yada düşür.

Çingiz Abdullayevi tənqid edənlər onu Azərbaycan dilini bilməməkdə, azərbaycanca yaza bilməməkdə, hətta ləhcə ilə danışmaqda ittiham edirlər. Çingiz Abdullayev Azərbaycan dilində ləhcə ilə danışa, sözləri bakılı ləhcəsi ilə işlədə bilər. Çünki Bakıda doğulub boya-başa çatıb və bakılı şivəsi ilə danışması tamamilə normal haldır. Amma xalq yazıçısını Azərbaycan dilində yaza bilməməkdə ittiham etmək ən azından mənəviyyatsızlıqdır. Onun danışıq zamanı bəzi sözlərimizi bakılılara xas ləhcədə işlətməyə görə tənqid etmək isə milli dəyərlərimizə qarşı çıxmaqdır.

Bəzilərinin xüsusi canfəşanlıqla, altını cızaraq qeyd etdiyi kimi, Azərbaycan dilində sözləri tələffüz edərkən Çingin Abdullayevin rusdilli olduğu aydın şəkildə görünə bilər. Lakin bu, onun şəxsiyyətinin, yazıçı kimi fəaliyyətinin və öz xalqına bağlılığının qiymətləndirilməsi üçün heç bir halda meyar ola bilməz. Ən azından ona görə ki, Çingiz Abdullayev fikirlərini rus dilində ifadə etməklə belə çoxlarından daha vətənpərvərdir və bu barədə istənilən şəxslə mübahisə etməyə hazıram. Bu baxımdan Çingiz Abdullayevə hücum edənlərin yadına onun hələ Vətən müharibəsi günlərində Rossiya-1 televiziyasında yayımlanan «60 dəqiqə» proqramında öz milləti və dövləti üçün necə mübarizə apardığını yada salmaq istəyirəm. Erməni yalanlarının ayaq tutub yeridiyi Rusiya efir məkanında məhz Çingiz Abdullayev kimi ziyalılarımız Azərbaycan davasını edirdilər. Məhz belə insanların sayəsində Azərbaycan həqiqətləri 44 günlük müharibə zamanı Rusiya auditoriyasına çatdırılırdı. Biz bunu necə unuda bilərik? İndi Çingiz Abdullayevi tənqid edənlərin biri belə həmin rus kanallarında doğru-düzgün danışa bilməz və ya Paşinyan kimi dili topuq vuraraq, özünü gülünc vəziyyətinə salardı.

Məlumdur ki, böyük şairimiz və mütəfəkkirimiz Nizami öz əsərlərini fars dilində yazmışdır. Çünki 12-ci əsrdə poeziyada fars dili hökmran olub. Amma Nizami öz əsərləri ilə məhz Azərbaycan ədəbiyyatının möhtəşəm nümunələrini yaradıb. Xaqani Şirvani də əsərlərini fars və ərəb dillərində yazsa da, Azərbaycan poeziyasının inkişafına xidmət edib. Orta əsrlərdə yaşayıb yaratmış bütün şair və mütəfəkkirlərimizin ərəb və fars dillərində qələmə aldıqları əsərlər klassik ədəbiyyatımızın ən böyük inciləridir. Azərbaycan dilində yazılmasa belə, onların hər bir əsəri milli kimliyimizə, tariximizə işıq salır, xalqımızı dünyaya tanıdır.

***Abbasqulu ağa Bakıxanov da «Gülüstani-İrəm» əsərini 1841-ci ildə farsca yazıb və daha sonra rus dilinə tərcümə edib. Azərbaycan dilində yazılmasa belə, Abbasqulu ağa Bakıxanov bu əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoyub. Çünki «Gülüstani-İrəm»ə qədər Azərbaycan tarixinə aid yazılmış ümumi bir tarix əsərinə təsadüf edilmir.***

Yalnız Azərbaycan ədəbiyyatında deyil, bütövlükdə Balkanlardan Hindistana qədərki türk-müsəlman dünyasında dramaturgiyanın əsasını qoymuş böyük dramaturqumuz, filosof və ictimai xadim Mirzə Fətəli Axundzadə isə əsərlərini sonradan özü rus dilinə tərcümə etmişdir. Bütün adını çəkdiyim ədəbi-tarixi korifeylərimiz hansı dildə yazmalarından asılı olmayaraq, Azərbaycan bədii ədəbiyyatını, bədii tarixini yaradıblar, öz qələmləri ilə bu millətə xidmət ediblər. Çingiz Abdullayev də həmin insanların müasir dövrdəki davamçısıdır. Rusca yazsa da, onun bu imkandan düzgün yararlanması Azərbaycanın dünyada təbliğinə, tanınmasına xidmət edir.



***Bir məsələ də var ki, onun barəsində tənqidi danışanlar əsərlərini tənqid etməyə məqam tapmırlar. Ən pis halda onun rusdilli və ya postsovet auditoriyasında tanındığını deyirlər. Bəyəm postsovet auditoriyası kiçikdir? Bəyəm postsovet auditoriyasında tanınmaq asandır? Görəsən, postsovet auditoriyasının oxucuları hansı meyarlarına görə avropalı oxuculardan geri qalırlar. Elə bizə daha yaxın olan və ya daha lazım olan postsovet auditoriyası deyilmi?***

Çingiz Abdullayevi rusdilli auditoriyada tanınmaqda ittiham edənlərin nəzərinə çatdırmaq istəyirəm ki, onun bioqrafiyası ilə daha yaxından tanış olsunlar. Çünki 200-dən çox kitabın müəllifi olan, əsərləri dünyanın 32 dilinə tərcümə olunaraq 27 milyon nüsxədə nəşr edilən Çingiz Abdullayev Avropada da yaxından tanınır. ***Onun «Mavi mələklər», «Qaranlıq simfoniyası», «Dronqo», «Mənim gözəl alibim», «Kabuslar tuneli» «Demək olar ki, inanılmaz qətl», «Öz dünyanı yarat», «Günəş altında qaranlıq», «İdeal hədəf», «Bütlərin yükü», «Öldürməyə öyrədilmiş», «Tənha ürəklərin evi», «Tərsinə çevrilmiş reallıq», «Qurban sindromu», «Alliqator xətti», «Həvəskarların arzusu», «Avropanın ələhidarları», «İngilis bulvarı», «Transilvaniyaya səyahət», «Oliqarxın varisi», «Əfsanə hüququ» , «Herodun kölgəsi», «Adında şər» və «Adında xəyanət», "Əclafların qanunu", "Əclafların əqidəsi" və "Əclafların vicdanı"*** kimi psixoloji və siyasi detektiv janrında yazdığı romanları Fransa, Almaniya, İtaliya, İsveç, Rumıniya, Latviya, Bosniya və Herseqovina, Serbiya, Albaniya, Bolqarıstan kimi dövlətlərdə nəşr olunub. Çingiz Abdullayevi tənqid edənlər isə heç Biləcəridən o yana keçə bilməyiblər.

Bu gün Çingiz Abdullayev Lütfi Zadə, Tahir Salahov, Rəşid Behbudov, Müslüm Maqomayev kimi korifeylərin yolunu gedərək, öz imzası ilə Azərbaycanı dünyada tanıdır. Biz belə insanlarla yalnız fəxr etməli, qürur duymalıyıq. Çox təəssüf ki, bu gün bəziləri bunu dərk etmir, görməzlikdən gəlir, urapatriotluqla məşğul olurlar.

Çingiz Abdullayevi təhqir etmək isə milli dəyərlərimizi tapdalamaq deməkdir. Həmin tənqid və təhqir müəlliflərinin təbirincə, biz gərək yuxarıda adlarını çəkdiyim Lütfi Zadədən, Müslüm Maqomayevdən, Tahir Salahovdan, Kərim Kərimovdan, Fərman Salmanovdan və eləcə də adlarını çəkmədiyim neçə-neçə soydaşımızdan imtina edək. Axı onlar da obyektiv səbəblərdən Azərbaycan dilində səlis danışa bilmir və ya Azərbaycanda yaşamırdılar.

Ona görə görə Çingiz Abdullayevi təndiq edənlər, ona çamur atanlar papaqlarını qarşılarına qoyub yaxşı-yaxşı düşünsələr, yaxşı olar. Düşünsünlər ki, Çingiz Abdullayevin etdiklərinin mində biri qədər bu millət üçün nə ediblər? Və ya, görəsən, Çingiz Abdullayevin mində biri qədər vətənpərvər ola bilərlərmi? Hesab edirəm ki, onların zərrə qədər vətənpərvərlikləri olsaydı, böyük yazıçımıza qarşı belə hörmətsizlik etməzdilər.

Bu gün Çingiz Abdullayevə qarşı çıxanların layiqli cavabları verilməsə, sabah digər böyük sənətkarlarımızı ləkələməyə çalışacaqlar. Necə ki, bir neçə il əvvəl Səməd Vurğunun və Süleyman Rüstəmin yaradıcılığına kölgə salmağa çalışırdılar, lakin cəmiyyətin sərt reaksiyası ilə üzləşərək, layiqli cavablarını aldılar.

Çingiz Abdullayev öz uğurlu yaradıcılığı ilə Azərbaycanı dünyada tanıdan milli dəyərdir. Milli dəyərləri isə qorumaq, tərənnüm etmək bizim müqəddəs vəzifəmizdir.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik**

## Mərkəzi Gömrük Hospitalının Nefrologiya və Efferent Terapiya şöbəsində kəskin və xroniki böyrək xəstəliklərinin müalicəsi həyata keçirilir




Mərkəzi Gömrük Hospitalının Nefrologiya və Efferent Terapiya şöbəsində yüksəkixtisaslı mütəxəssislər tərəfindən kəskin və xroniki böyrək xəstəliklərinin müalicəsi həyata keçirilir. Şöbədə nefrologiya və efferent terapiya xidmətinə ehtiyacı olan pasiyentlər üçün təcili və planlı şəkildə hospitalizasiya və gündüz stasionar xidmətlər göstərilir.

- *Poliklinika xidmətləri sırasında bütün növ ambulator xəstələrin müayinə və müalicəsi, o cümlədən Renal transplant olunmuş xəstələrə nəzarət aparılır.*
- *Nefrologiyaya aid olan bütün növ stasionar xidmətlər, Hemodializ və Periton dializli xəstələrdə yaranan ağırlaşmaların aradan qaldılırlması, böyrək biopsiyası, Glomerul xəstəliklərdə İmmunosupresion verilməsi və digər xidmətlər həyata keçirilir.*
- *Hemodializ xidmətlərinə kəskin böyrək zədələnmələri və Xroniki böyrək çatışmazlığı son mərhələsi zamanı, göstərişə uyğun olaraq, hemodializ seanslarının həyata keçirilməsi, qısa və uzunmüddətli hemodializ kataterlərinin qoyulması, uzunmüddətli hemodializ kateterlərinin yaratdığı stenozun aradan qaldılırlması, Hemodializ xəstələrində digər ağırlaşmaların aradan qaldırılması daxildir.*

Reanimasiya və İntensiv Terapiyaya Aralıqılı Hemodializ, Sutkalıq Hemodializ, Periton dializi, Hemosorbsiya, Hemodiafiltrasiya, Plazmafarez və eyni zamanda Kəskin böyrək zədələnməsi olan xəstələrin müalicəsi aiddir. Mərkəzi Gömrük Hospitalı daim sağlamlığınızın keşiyindədir!

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**




**Azəri Light və Brent markalı neftin bir barelinin 7 – 13 sentyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı
**ELMİRA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı
**ELMİRA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**